ƏDƏBİYYATŞÜNASLIQ

UOT 82

"QIZIL ALMA" TURAN İDEALININ VƏ TURANÇILIĞIN SİMVOLU KİMİ

Ülviyyə Ə.ABDULLAYEVA*

Məqalədə Türk dünyasının Turan idealını və Turançılığını müəyyən edən faktorlardan biri Qızıl almanın poeziyada əks olunması problemi araşdırılır. Qızıl alma Turanın tarixi qədər qədim olmaqla yanaşı, türklərin ümumi birliyini əks etdirən göstəricidir. "Qızıl alma"-nın bədii düşüncədə əks olunması tarixi lap qədimlərə gedib çıxır; onun ayrı-ayrı rəmzlərinə həm folklorda, həm tarixi və bədii əsərlərdə, rəvayətlərdə rast gəlinir. Yazılı ədəbiyyatda isə bu motiv ən çox türk ədəbiyyatında, müəyən qədər isə Azərbaycan romantik ədəbiyyatında əks olunur. Xüsusilə türk ədəbiyyatında Qızl alma motivinə üstünlük verilmişdir. Bu cəhətdən araşdırmalar bu gün də böyük əhəmiyyətə malikdir. Ziya Göyalp, Ömər Seyfəddin, Aka Gündüz, Kamal Yəhya kimi türk ziyalıları Qızl alma motivinin ədəbiyyatda yer tutmasında böyük rol oynamışdırlar. Tədqiqatın məqsədi Türk dünyasında Qızıl almaya müraciətin forma, üsullarını, tarixini müəyyənləşdirməkdir.

Açar sözlər: Turan idealı, Qızıl alma, Turançılığın simvolu, poetik qaynaqlar

Giriş. Türk xalqlarının həyatında və inancında müəyyən yer tutan alma obrazı və Qızıl alma motivi Turan idealının simvoluna çevrilmişdir. Sonralar türk xalqlarının birlik və bərabərliyini ifadə edən Qızıl alma həm də "Altun alma", "Altun top" kimi ifadə edilmiş, daha çox siyasi məna kəsb etməyə başlamışdır. Bu sözün tarixinə gəldikdə isə zaman-zaman Qızıl alma gah ortaya çıxmış, sonra bir müddət unudulmuşdur; onun dəqiq nə zaman ortaya çıxması barədə qənaətlər müxtəlifdir. Yalnız onu demək mümkündür ki, Qızıl alma türklərin dünya hakimiyyətinin bir simvolu olaraq ortaya çıxmış "...özəlliklə Osmanlı dönəmində dövlətin alması gərəkən yol, varması gərəkən yer şəklində başa düşülmüşdür" [1, 1471]. Orxan Şaik Gökyay bu simvolun ortaya çıxışını Osmanlı dövrünə aid edir və Osmanlı ilə birlikdə tarix və ədəbiyyat dövriyyəsinə daxil olduğu qənaətinə gəlir. Onun fikrincə, Qızıl alma "Osmanlının özəlliklə Qərb ölkələrinə doğru yürütdüyü cihadın bir simvolu olduğu yönündə

* ***Xəzər Universiteti, Azərbaycan ədəbiyyatı ixtisası üzrə doktorant; ulviyya.abdulla1@gmail.com; ORCİD İD: 0000-0003-4066-3080***

birləşməkdədir" [5, 9]. O.Ş.Gökyay mənbə vermədən belə bir rəvayət də danışır ki, Sultan Süleyman Qanuni taxta çıxdığı zaman qışlaları ziyarət edər, əsgərlərin şərbətini içər və içdiyi bardağı altunla doldurub onlara hədiyyə edərdi. Ayrılarkən də əsgərlərinə "Qızıl Almada görüşərik" deyərdi. Bu deyim əsgərlərdə oxşar ideallarının canlanmasına səbəb olurdu. Çünki yeniçərlər arasında "Qızıl Alma" əfsanəsi çox yayğın olub "Dəstiyə kurşun atar, keçiyə qılınc çalar, Qızıl Almayadək gedərik" sözlərinin çox yayıldığından onların fədakarlıqlarını ifadə edərdi [5, 12]. Əgər beləsə, Qızıl alma sözünün bu şəkildə ifadəsinin və hər hansı bir hədəfi göstərməsinin ilk mənbəyi olaraq görmək mümkündür. Məhz bu zamandan Qızıl alma Osmanlının Avropada önəmli şəhərləri fəth etməsinin bir işarəsi olaraq işlənilmişdir. Vaxtilə adı çəkilən yerlərin Osmanlı tərəfindən fəth edilməsi də bunu deməyə əsas verir. Osmanlının divan şairlərindən bəzilərinin şeirlərində adı çəkilən bu simvol Övliya Çələbi tərəfindən də xatırlanmışdır. Lakin uzun müddət Qızıl alma simvolu unudulmuş, haqqında söhbət açılmamışdır.

Türkiyə ədəbiyyatında "Qızıl alma" idealı. Türkiyə araşdırıcısı Necati Gültəpə yazır: "Qızıl alma" söyləncələri XVI əsrdən XIX əsrin sonunadək dörd yüz il rəsmi tarixdən kənarda nağıl, hekayə, rəvayət və söyləm olaraq geniş xalq kütlələri arasında səssizcə davam edər. Toplumun yaddaşında bir xəyali qavram olaraq XIX əsrin sonlarında son böyük Turan dövləti olan Osmanlı çökərkən şairlər, filosoflar və yazarlar birdən-birə bu yarı xəyal, yarı gerçək ifadədən yenidən söz etməyə başlarlar. Bundan ilk söz edən fikir adamı Ziya Göyalpdır" [9, 16].

Z.Göyalpın "Qızıl alma" poeması bir çox cəhətdən xüsusi əhəmiyyət daşıyır. O zamanlar Ziya Göyalpın Qızıl alma şeiri bir ülkü, türk millətinin gələcəkdə gerçəkləşdirəcəyi bir ideal ölkəsi olaraq dəyərləndirilmiş, beləcə şair Ziya Göyalp I Dünya müharibəsi ərəfəsində, vaxtilə unudulmuş olan bu Qızıl alma simvoluna gətirdiyi izah, təmsil etdiyi Turan ideologiyasının bir təfsiri olaraq görülmüşdü [8, 19].

Z.Göyalpla yanaşı, demək olar ki, ondan cəmi bir neçə il sonra yazıçı Ömər Seyfəddinin (1884-1920) də Qızıl alma ilə bağlı hekayəsi dərc edilir. Yazıçı buna qədər özünün bir sıra milli hekayələri ilə tanınmışdı. Hətta bu hekayələrin dili sadə olmaqla həmin vaxt qaldırılan dil mübahisələrində sadəliyin tərəfində çıxış edirdi. "Qızıl alma neresidir?" hekayəsində isə ondan bir qədər əvvəl Z.Göyalpın qaldırdığı problemə bir qədər başqa yöndən yanaşırdı. Yazıçı bu hekayəsində Qızıl alma ideyasının yaranmasına və haradan gəlməsinə toxunur. 29 noyabr 1917-ci ildə "Yeni məcmuə"də çap olunmuş hekayədə Qızıl almanın harada olmasını Sultan Süıeyman Qanuninin dövrünə bağlayır. Bu yanaşma O.Ş.Gökyayın əvvəldə göstərdiyimiz münasibəti ilə yaxınlıq təşkil edir. Yəni O.Şaiq də "Qızıl alma neresidir?" sualına ünvanı Sultan Süleymanı göstərirdi. Hekayədə təsvir olunur ki, Sultan Süleyman həm xalq, həm də əsgərlər arasında "Qızıl almaya", "Qızıl almaya" sözlərini çox eşitmişdi. Bu barədə xalq arasında rəvayət də dolaşırdı. Bu rəvayət Sultan Süleymana da çatır və o, divan dağıldıqdan sonra Qızıl almanın harada olması barədə

düşünür. Divanda hamı toplanmışdı. Onlar "Qaf dağına qədər arxanca getməyə hazır" olduqlarını bildirirlər. Bir dəfə tək oturduğunda yenə də Qızıl alma sözlərini eşidir. Bu sözləri ordu bir ağızdan deyirdi. Hətta son günlər bu sözləri sarayın iç bağçasında da eşitmişdi: "Kızılelma"ya… "Kızılelma" ya… sədalarını duyunca "Kızılelma"nın neresi olduğunu düşünmeye başlar ve bu sorunun cevabını araştırmak üzere devletin ileri gelen görevlilerini çağırır. "Kızılelma neresi?" diye mırıldandı. Şarkta olsun, Garpta olsun, sefere çıkarken askerler hep "Kızılelma" ya… diye bağrışıyordu. Bu narayı yeniçeri kışlalarında, sipahi ocaklarında, geçit resimlerinde, hatta İstanbulda, sarayın iç bahçesinde bile duymuştu. Kızılelma neresiydi?" [11, 161]. Sultan Süleymanı bu fikir çox düşündürür və yenidən divanın toplanılmasını istəyir. Divan üzvləri yenidən toplanmanın təşvişi içində bir araya gəlirlər. Bu zaman həmin sualı Sultan Süleyman onlara verir. Lakin onların heç birindən dəqiq cavab ala bilmir.

Sultan Süleyman Qızıl almanın hara olduğunu, bunu deyərkən haranı nəzərdə tutduqlarını öyrənmək istədikdə müxtəlif cavablar eşidirdi. Bu cavablar arasında Roma, Vyana, Hind, Çin, Maçin, Qaf dağı və başqa yerlərin adı çəkilirdi. Padşah sədrəzəmi çağıraraq bunu söyləyənlərin hüzuruna gətirilməsini istəyir. Onları bir-birindən xəbərsiz padşahın hüzuruna gətirirlər. Padşah onlarda Qızıl almanın hara olduğunu xəbər aldıqda üçü də eyni cavabı verir: "Padşahımızın bizi götüreceyi yer...". Padşah "Ora haradır?",-deyə soruşduqda isə "Padişahımız bilir...", -deyə cavab verirlər: "İskəndər Paşa üçüncüyü hüzura soktu. Bu geniş omuzlarına batarasının ucları düşən gənc bir bostançıydı.

- ...!

-Kızıl alma neresi?

-Atınızın gittiyi yer... Padişahım!

-Orası neresi?

-Neresi olduğunu ancak padişahım bilir...

-....

Evet... Orası ne Hind, ne Sind, ne Çin, ne Maçin, ne Viyana, ne de Romaydı. Padişah hüzurundakılara:

-Gördünüz ya, dedi, üçünün de cevabında bir fark yok. Hakikat bir: "Kızıl elma" benim getmek istediyim yer, işte... Hakkın beni göndereceyi yer..." [11, 162].

Burada Qızıl alma motivi Z.Göyalpdan fərqlənir; belə ki, əgər Z.Göyalp Qızıl almanı xəyali bir məkan hesab edib, türkləri bu məkana doğru istiqamətləndirməyi hədəfləyirdisə, Ömər Seyfəddin Qızıl alma dedikdə, xalqın dili ilə "padşahın onları aparacağı yer" mənasını ifadə etdiyini göstərir. Eyni zamanda, Qızıl alma Sultan Süleymanı da düşünməyə vadar edir və məlum olur ki, bu ideya onu yeni hədəflərə doğru səsləyir: "Padişah birden-bire "Hakkın kendisini göndereceği yeri" düşündü. Nihayet, bulunmaz Hak yolunun, hakikat yolunun gittiği Kızıl elma denen bu cennet kapısında Viyana, Roma, Hint, Sint, Çin, Maçin birtakım fani harabelerden başka bir şey miydi? Başını salladı. Arkasına dayandı. İri siyah gözlerini ufalttı. İlahi, manevi bir zevke varmış gibiydi!" [11, 167].Yazıçı burada həm də türklüyün daim bir hədəfi olduğunu

və bu hədəfi padşahın bəlirlədiyini, xalqın isə onun ardınca gedəcəyini göstərmək istəmişdir. Eyni zamanda, yazıçı xalq düşüncəsini burada önə çıxarır və Qızıl alma idealının xalq düşüncəsində tarixən özünə möhkəm yer etdiyini göstərir. Bununla belə, hər iki yazarın əsərində Qızıl alma türklərin gələcək idealı olaraq təsvir edilir.

Türkiyə ədəbiyyatında Qızıl alma mövzusunda yazanlardan biri də Aka Gündüzdür (1886-1958). Maraqlıdır ki, onun bu mövzuda bəhs edən "Möhtərəm qatil" pyesi də eyni zamanda yazılmışdır. Araşdırmalar göstərir ki, onun əsəri Z.Göyalpın poemasından sonra çap olunmuşdur. Ancaq əsərin epiqrafında müəllifin "Moskovlara harp elan olunmazdan evvel" yazması göstərir ki, əsər I Dünya müharibəsindən əvvəl yazılmasını göstərməsə də, baş verən hadisələrin müharibədən əvvəlki dövrü əks etdirdiyinin işarəsidir. Üç pərdəlik "Möhtərəm qatil" əsəri yazıldığı dövrdə populyar olmuş və səhnədə dəfələrlə göstərilmişdir. Əsərdə hadisələr Qafqazın Əcdad adlı kəndində baş verir. Doğan, Can, Yaqub, Şahin, Şeyx Şamil, Əskər, Çoban, Bir Köylü, İxtilalçı Köylülər, İxtilalçı Çetelər və başqa personajlar dövrün gerçəkliklərini əks etdirir. Bunlardan Doğan və Can Balkan müharibəsində vuruşmuş və qazi olmuşlar. Doğan həm də şikəst olmuşdur. Əsərdə Moskva buradakı türklərin düşməni olaraq təsvir edilir. Maraqlı cəhət Qafqaz türklərinin Moskvaya qarşı azadlıq, istiqlal savaşı aparmasındadır. Qafqaz türkləri addım-addım özünün istiqlalına doğru yol gedir və Moskva əsarətindən qurtarmağı ən böyük məqsədlərdən biri hesab olunur. Əsərin qayəsi də elə bundan ibarətdir:

Ey Türkoğlu! Silahların dolu mu?
Tuttuğun yol yolu mu?
Çözdü kader artık bağlı kolumu!
Sür git kardeş! Bu yol çıkar Turan`a!
Bütün Kafkas, nura, kana bulana! [2, 167-168].

Türkiyə araşdırmaçısı Abdullah Harmançı Aka Gündüzün bu əsərinin Z.Göyalpın əsəri ilə səsləşdiyi qənaətindədir: "Eserde birkaç defa tekrar eden bu şiir, Turan`a, Türklerin dünya üzerindeki istiklaline ve hakimiyetine işaret etmektedir. *Muhterem Katil*`in sonunda Türkler arzu ettikleri ihtilali gerçekleştirir ve Kızılelma için ciddi bir adım atılmış olur. Görüldüğü gibi, Aka Gündüz, bir tiyatro eserinde yer alan şiirinde, Kızılelma idealini Ziya Gökalp`ın yukarıda andığımız eserinde vurguladığı anlayış paralelinde dile getirmektedir" [1, 1476].

Türk ədəbiyyatında Qızıl alma motivinə bir də Yəhya Kamalın (1884-1958) "Gedik Əhməd Paşaya qəzəl" adlı şeirində rast gəlirik. Bu şeirin də I Dünya müharibəsi zamanında yazılması Qızıl alma motivinin bu dövrdə türklərin daha çox bir ideal uğrunda birləşməsini şərtləndirən amillərdəndir. Şeirdən görünür ki, şair burada Ömər Seyfəddinin hekayəsi üçün yazdığı rəvayətdən təsirlənmişdir. Bunu şeirin məzmunundan və rədifinin "qədər" sözü ilə bitməsindən də görmək olar:

Çıktı Otranto`ya pürvelvele Ahmet Paşa
Tuğlar varsa gerektir Kızılelmâ`ya kadar
Ra`d-ı tekbîr kopup gitmelidir bank-i ezan
Dâr-ı küffârda meşhur kenîsâya kadar
Gark-ı nur olmalı iman-ı Muhammed`le frenk
Bu sefer Rim-papa"dan Hazret-i İsa`ya kadar
Olsun ilham edenin ruhuna bir tuhfe Kemal
Şehper açsun bu gazel Cennet-i Âlâya kadar [12, 71-72].

Bu əsərdən sonra bir müddət Qızıl alma idealı ədəbiyyat üçün, necə deyərlər, arxa plana keçir. Bir də Qızıl alma motivi 30-cu illərinin başlarında Nihal Atsızın şeirlərində rast gəlinir. Görünür buna səbəb Türkiyənin yeni bir dönəmə qədəm qoyması olmuşdur. Ağır bir dönəmdən keçən Osmanlı imperiyası dağılmış, onun yerində yeni bir demokratik Cümhuriyyət yaranmışdır. Nihal Atsız özünün "Türk gəncliyinə" (1931) şeirində yenidən Qızıl alma idealını ədəbi dövriyyəyə gətirməklə bu motivin ədəbi ömrünü uzatmış olur. Maraqlıdır ki, müəllif Qızıl alma idealından danışarkən üzünü türk gəncliyinə tutur və bununla onları bu ideal uğrunda mübarizəyə səsləyirdi. Şair şeir boyu türklərin tarixi birliyini vurğulayaraq Turana gedən yolun bu birlikdən keçdiyini demək istəmişdir. Türk gəncliyinin ideallarının Qızıl alma olduğunu bildirən şair onun uğrunda qılınc çalmağa və mübarizə aparmağa sövq edir:

KIZIL ELMA uğrunda kılıç çekince kından,
Bahtiyarlık denen şey artık geçmez yakından.
Mesut olup gülmeyi sök, çıkar hatırından.
Belki öldükten sonra bir parça güleceksin.
Yüz paralık kurşunla gider "HAYAT" dediğin;
"Tanrı yolu" uzaktır; erken kalk, sıkı giyin.
Yazık, bütün ömrünce o kadar özlediğin,
Güzel Kızılelma`na varmadan öleceksin [3, 74]

Sonrakı dövrdə də müxtəlif türk şair və yazıçıları zaman-zaman Qızıl alma idealı və motivi barədə yazmışlar.

Azərbaycan ədəbiyyatında "Qızıl alma" idealına müraciət. Turan idealının simvoluna çevrilən Qızıl alma idealı haqqında Türkiyə ədəbiyyatında geniş yazılmasına baxmayaraq Azərbaycan ədəbiyyatında bu mövzuda çox az yazılmışdır. İlk dəfə Qızıl alma motivi XX əsrin əvvəllərində Azərbaycan romantiklərinin yaradıcılığında işlənmişdir. Məlumdur ki, Azərbaycan romantikləri türk ədəbiyyatından təsirlənmiş və türk romantizmi ilə həm mövzu, həm problem baxımından son dərəcə yaxın olmuşdur. Doğrudur, Azərbaycan romantiklərindən Hüseyn Cavid, Abbas Səhhət, Məhəmməd Hadi, Əhməd Cavad, Cəfər Cabbarlı yaradıcılığında Turan mövzusu müəyyən yer tutur. Lakin bu şairlərin yaradıcılığında Qızıl alma motivinin təsvirinə rast gəlinmir. Məlumdur ki, Cümhuriyyət dövründə poeziyada milli düşüncə və türkçülük elementləri yeni bir mərhələyə qədəm qoyur. Buna səbəb ictimai-siyasi həyatın dəyişməsi və Azərbaycanın öz müstəqilliyini qazanması olur. Ancaq o da var

ki, Cümhuriyyət düşüncəsini yetişdirən və formalaşdıran amillərdən biri də məhz ədəbiyyat olur. A.Şaiqin XX əsrin əvvəllərindən millət, xalq, maarif istiqamətində yazılmış əsərlərində milli düşüncə başlıca yer tuturdu. I Dünya müharibəsi zamanı bu düşüncə bir qədər də ulusal səciyyə daşıyır. Onun "Fidan" (1914), "İrəli" (1914), "Dan ulduzu" (1914), "Simurg quşu" (1914), "Əsrimizə xitab" (1915) və s. şeirlərində ictimai prosesləri təsvir edirdi. "Simurg quşu" şeirində ananın oğlu ilə söhbəti verilir. Onun atası döyüşlərdədir. Oğul ananı əmin edir ki, hər şey yaxşı olacaq, atan qalibiyyətlə qayıdacaq və Qafqazda yenə də səadət olacaq. "Əsrimizə xitab" şerində də üstümüzdə dolaşan qanlı buludların çəkiləcəyini ifadə edirdi.

Cümhuriyyət dövründə yazdığı şeirlərdə isə vətənçilik, türkçülük, azərbaycançılıq və birlik mesajları verilir. "İki mücahid" (1918), "Türk ədəmi mərkəziyyət-"Müsavat"a ithaf" (1918), "Neçin böylə gecikdin" (1918), "Vətənin yanıq səsi" (1918), "Arazdan Turana" (1919), "Yeni ay doğarkən" (1919), "Unudulmuş parçalar" (1919) və s. şeirlərində sıx-sıx türkçülük vurğusu edilir, birlik və bərabərlik mesajları verilirdi. "Arazdan Turana" şeirində Azərbaycanı Turanın bir parçası hesab edir və yüz milyonluq türkün "yabançı əlləri" türk yurduna girməyə imkan verməyəcəyini bildirir. Şair burada ilk dəfə olaraq poeziyamıza Qızıl alma motivini gətirir. Doğrudur, bu motiv türk ədəbiyyatında olduğu kimi siyasi motivdə deyil, ancaq Qızıl alma idealı şairin Turan ideyasının bir parçası olaraq verilir:

- Annə, Turan elindən quruntulu bir xəbər
Gətirmişiz şu tasa, ürəyimizi həp dələr.
Girmiş sehirli divlər Qızıl alma bağına,
Qara quzğun uşuşmuş soluna və sağına.
Derlər, dünya gözəlnin dizində yad başlar var,
Süzgün, bayğın gözündə qan köpürən yaşlar var [5, 73].

Nəticə. Beləliklə, Qızıl alma motivinin XX əsrin əvvəllərində türk ədəbiyyatında yenidən ortaya çıxdığını görürük. Qızıl almanın tarixən mövcud olan Turan və turançılığın bir idealı olduğunu nəzərə almış olsaq, bu ideyanın ortaya atılmasının nədənləri aydın olar. Belə bir nəticəyə gəlmək olar ki, Qızıl alma Turan ideologiyasının ayrılmaz bir tərkib hissəsidir və onun ədəbiyyatımızda meydana çıxmasını təsadüfi hesab etmək olmaz. Siyasi proseslər Turan ideyasını şərtləndirmiş və Turan ideyası da Qızl alma motivini ortaya çıxarmışdır. Xüsusilə Türkiyə ədəbiyyatında Qızl alma motivinə üstünlük verilmişdir. Ziya Göyalp, Ömər Seyfəddin, Aka Gündüz, Kamal Yəhya kimi türk düşünürləri Qızl alma motivinin ədəbiyyatda yer tutmasında böyük rol oynamışlar.

Nəticədə, "Qızıl alma" motivi Turançılıq, türkçülük ideologiyasında mühüm yer tutduğundan mühitin sənətkarlıq məsələlərini aydınlaşdırmaq üçün də vacib mənbəyə çevrilir."Qızıl alma" motivi zəngin türk ədəbiyyatı yaradıcılığında bir problem kimi tədqiq olunma zərurətində görünür və daha ciddi araşdırmaları aktuallaşdırır.

ƏDƏBİYYAT

1. Abdullah Harmançı. Yeni Türk Edebiyatında “Kızılelma”. // Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic. Volume 5/3 Summer 2010
2. Aka Gündüz. Muhterem Katil. İstanbul: Zarafet Matbaası, 1914.
3. Atsız Nihal. Yolların Sonu. 5. bs.. İstanbul: İrfan Yayınevi, 1997.
4. Gökalp Ziya. Kızıl Elma. İstanbul: Toker Yayınları, 2013, 192 s.
5. Gökyay Orhan Şaik. Kızılelma Üzerine. // Tarih ve Toplum, Ocak, Şubat, Mart, Nisan, S. 25, 26, 27, 28, (1986), s. 9-14.
6. Gökyay Orhan Şaik. DİA İslam Ansiklopedisi. C. 25. İstanbul: TDV Yayınları, 2002, s. 559-561.
7. Göyalp Z. Qızıl alma (Azərbaycan dilinə uyğunlaşdıran Ülviyyə Kərəmqızı) // Kərəmqızı Ü. Qızıl alma. Bakı: Elm və təhsil, 2016, s.126-144.
8. Göyalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, 175 s.
9. Gültepe Necati, Kızılelma’nın İzinde. İstanbul: Milenyum Yayınları, 2007.
10. Kərəmqızı Ü. Qızıl Alma. Bakı: Elm və təhsil, 2015.-148 s.
11. Ömer Seyfettin. Bütün Eserleri-Hikâyeler 2 (Hazırlayan: Hülya Argunşah). İstanbul: Dergâh Yayınları, 1999
12. Yahya Kemal. Eski Şiirin Rüzgarıyle. 5. bs.. İstanbul: İstanbul Fetih Cemiyeti, 1993.

«ЗОЛОТОЕ ЯБЛОКО» КАК СИМВОЛ ИДЕАЛА ТУРАНА И ТУРАНИЗМА

Ульвия А.АБДУЛЛАЕВА

РЕЗЮМЕ

В статье исследуется проблема отражения Золотого Яблока в поэзии, одного из факторов, определяющих туранский идеал и туранизм тюркского мира. Золотое яблоко старо, как история Турана, но оно также отражает общее единство турок. Отражение «золотого яблока» в художественной мысли восходит к античности; Его различные символы встречаются в фольклоре, а также в исторических и художественных произведениях и легендах. В письменной литературе этот мотив в большей степени отражен в турецкой литературе и в некоторой степени в азербайджанской романтической литературе. В частности, в турецкой литературе предпочитали мотив Золотого Яблока. В связи с этим исследования по-прежнему имеют большое значение. Турецкие мыслители, такие как Зия Гёкалп, Омар Сейфаддин, Ака Гундуз, Камаль Яхья, сыграли важную роль в мотиве Золотого Яблока в литературе. Цель исследования – определить форму, методы и историю обращения за золотом в турецком мире.

Ключевые слова: Туранский идеал, Золотое яблоко, символ Туранизма, поэтические источники

“GOLDEN APPLE” AS A SYMBOL OF TURAN IDEAL AND TURANISM

Ulviya A.ABDULLAYEVA

SUMMARY

The article examines the problem of the Golden Apple’s reflection in poetry, one of the factors determining the Turan ideal and Turanism of the Turkic world. The golden apple is as

old as the history of Turan, but also reflects the general unity of the Turks. The reflection of the "golden apple" in artistic thought dates back to antiquity; Its various symbols are found in folklore, historical and artistic works and legends. In the written literature, this motif is mostly reflected in Turkish literature, and to some extent in Azerbaijani romantic literature. In particular, the motif of the Golden Apple was preferred in Turkish literature. In this regard, research is still of great importance today. Turkish thinkers such as Ziya Goyalp, Omar Seyfaddin, Aka Gunduz, Kamal Yahya played an important role in the Golden Apple motif in literature. In Azerbaijani literature, Abdullah Shaig appealed to the motif of the Golden Apple and gave artistic life to this motif, which lived the ideal of Turan. The purpose of the study is to determine the form, methods and history of applying for gold in the Turkish world.

Keywords: Turan ideal, Golden apple, symbol of Turanism, poetic sources